# Eyvaz BORÇALI

## *Elçinə*

*Çalxanıb, bulanıb, durulub zaman*
*Çək-çevir eləyib gəlib-getmişi.*
*Üz-üzə durduqca yaxşıyla yaman*
*Sən bütöv yaşadın bütöv yetmişi.*

*Ziyalı ocaqdan aldığın ziya*
*Hopdu qələminə, çökdü qəlbinə.*
*İndi özünün də saldığın ziya*
*İbrətdir dostluqda dostun qəlbinə.*

*Fikrin aydınlığı, sözün kəsəri*
*Alıb mayasını səmimilikdən;*
*Hər yeni əsərin, təzə əsərin*
*Çeşmətək qaynayıb gəlib ilikdən.*

*Sənət aləmində bəllənib yerin,*
*Sən zəhmət çəkmisən, biz zövq almışıq.*
*Qələmi qəlbindən su içənlərin*
*Üzündə nur olub, Sözündə işıq.*

*Yazıb-yaradana yetmiş nədir ki,*
*Səksəni, doxsanı haqlamalısan;*
*Şərəfli yetmişi yüzə yetir ki,*
*Yüzün özündən də çağlamalısan.*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 20 may.- S. 19.